***UOT 338.48***

***G.C.Cəfərova[1], S.M.A.Zülfüqarova[2], F.Q.Niftiyev[3]***
*Bakı Dövlət Universiteti[1,2]*
*Tərəvəzçilik Elmi Tədqiqat İnstitutu[3]*
*gulnare-abbasova@mail.ru*
*sekine-zulfuqarova1959@mail.ru*
*f.niftiyev@mail.ru*

# AZƏRBAYCANDA MÜALİCƏ-SAĞLAMLIQ TURİZMİNİN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *rekreasiya ehtiyatları, sağlamlıq turizmi, balneoloji turizm, talasaterapiya*

Məqalədə Azərbaycanda müalicə-sağlamlıq turizminin təşkili və müasir vəziyyəti geniş şərh edilmişdir. Ölkədə mineral bulaqlar, müalicəvi palçıq və neft, duz mağaraları və s. müalicə-sağlamlıq turizminin inkişafına böyük təkan verir. Azərbaycanda qeyri-neft sektorunun inkişafı ilə əlaqədar turizm sənayesinin inkişafı dövlət tərəfindən prioritet sahə hesab edilir. Məqalədə respublikamızın təbii imkanları, mövcud kurort-sanatoriyaları müalicə-sağlamlıq turizminin inkişafına müsbət təsiri geniş izah edilmişdir.

***Г.Д.Джафарова, С.М.Зульфугарова, Ф.Г.Нифтиев***

# ОСОБЕННОСТИ РАЗВИТИЯ ЛЕЧЕБНО-ОЗДОРОВИТЕЛЬНОГО ТУРИЗМА В АЗЕРБАЙДЖАНЕ

***Ключевые слова:*** *рекреационные ресурсы, оздоровительный туризм, бальнеологический туризм, талассотерапия*

В статье рассматриваются организация и современное состояние лечебно- оздоровительного туризма в Азербайджане. Минеральные источники, лечебные грязи и масла, соляные пещеры и др. придают огромный импульс развитию лечебно-оздоровительного туризма в стране. В связи с развитием ненефтяного сектора в Азербайджане развитие туристической индустрии считается приоритетной отраслью со стороны государства. В статье подробно описываются природные богатства республики, положительное влияние действующих курортов на развитие оздоровительного туризма.

***G.J.Jafarova, S.M.Zulfuqarova, F.Q.Niftiyev***

## FEATURES OF DEVELOPMENT OF HEALTH TOURISM IN AZERBAIJAN

***Keywords:*** *recreational resources, health tourism, balneological tourism, thalasotherapy*

İn the article are commented the organization and current state of medical tourism in Azerbaijan. Mineral springs, healing mud and oil, salt caves, etc. give a great impetus to the development of resort and health tourism in the country. In connection with the development of the non-oil sector in Azerbaijan, the development of the tourism industry is considered a priority industry by the state. The article describes in detail the natural wealth of the republic, the positive impact of existing resorts on the development of recreational tourism.

Müasir dövrdə dünayda müalicə-sağlamlıq turizmi sürətlə inkişaf edən turizmin növlərindən biridir. Bu turizm növü təbii müalicəvi ehtiyatlar əsasında xəstələrin müalicə və proflaktikasını təşkil etmək və həyata keçirmək üçün elmi-praktiki fəaliyyətinin bütün növlərinin məcmusudur. Xidmət sahəsinin bu sektoru mühüm sosial məsələləri yerinə yetirir:

- Təbii rekreasiya ehtiyatları və ölkənin kurort kompleksindən səmərəli istifadə əsasında (sanatoriya-kurort infrastrukturu və kadr potensialının təmin edilməsi) əhalinin sağlamlığının möhkəmləndirilməsi;
- Əmək ehtiyatlarının və əhalinin məşğulluğunun bərpa olunması və kurortların inkişafı [6].

Müalicə-sağlamlıq turizmi əhalinin sağlamlığının qorunması sahəsində olduqca mühüm yer tutur. Belə ki, sağlamlıq ocaqlarında aparılan müalicə nəticəsində xəstələrdə reabilitasiya prosesi sürətlənir, xəstəliklərin kəskinləşməsi prosesinin qarşısı alınır və xəstələr normal həyata qayıtmaq imkanı əldə edirlər. Sanatoriya-kurortlarda səmərəli müalicə nəticəsində həm böyüklərdə, həm də uşaqlarda xəstəliklərin kəskinləşməsi, xəstələrdə əmək qabiliyyətinin müvəqqəti və daimi itirilməsi halları aradan qaldırılır.

İnsan sanatoriya-kurort sahəsinin potensial istehlakçısıdır. O, məzuniyyəti zamanı əsasən müalicə olunmaq, sağlamlığını bərpa etmək üçün sanatoriyalar seçir. Bununla yanaşı istirahət etmək, dincəlmək, gündəlik problem və qayğılardan uzaqlaşaraq, gələcək həyatı üçün müsbət emosiya və enerji almaq istəyir. Turistin psixoloji vəziyyəti, ovqatı və emosiyası sanatoriya-kurort müəssisələrində müalicə ilə yanaşı asudə vaxtın təşkilindən də çox asılıdır [6].

Rekreasiya ehtiyatları dedikdə təbii-ərazi kompleksləri, onların komponentləri və xüsusiyyətləri nəzərdə tutulur. Kurort-turizm rekreasiya ehtiyatları əhalinin istirahəti, müalicəsi və həyat fəaliyyətinin artırılması üçün

istifadə edilir. Kurort təbii müalicə ehtiyatlarına malik olan və bu ehtiyatlardan bərpa, proflaktika və müalicə məqsədi ilə istifadə etmək üçün zəruri şəraiti olan ərazidir.

Azərbaycan Respublikası ərazisində kurort sərvətlərindən ən mühümü iqlimdir. Kurort məqsədilə aparılan iqlim rayonlaşdırılmasında ilk növbədə müalicə və istirahət üçün zəruri olan təbii amillər nəzərə alınır. Azərbaycanda müalicə-sağlamlıq turizminin inkişafı üçün digər amil müalicəvi əhəmiyyətli təbii ehtiyatlardır. Azərbaycanda qədim dövrlərdən müalicə məqsədilə təbiətin şəfaverici amilləri olan mədən sularından, müxtəlif növ neft və vulkanik palçıqlardan geniş istifadə edilmişdir. Mineral bulaqlar, müalicəvi palçıq və neft, duz mağaraları və s. ölkəmizdə müalicə-sağlamlıq turizminin inkişafına böyük təkan verir. Respublikamızın təbii imkanları, mövcud kurort-sanatoriyaları müalicə turizmin daha yüksək səviyyədə inkişaf etdirilməsinə böyük zəmin yaradır.

Azərbaycanın zəngin təbii müalicə ehtiyatlarının əhalinin sağlamlığının qorunmasında böyük əhəmiyyətini nəzərə alaraq, Respublika Prezidenti İlham Əliyev 27 fevral 2007-ci ildə "Azərbaycan kurortları" Dövlət Proqramı haqqında sərəncam imzalamışdır. Sərəncamda Azərbaycan Respublikasının kurortlarının inkişafına yerli sərmayə ilə yanaşı xarici investorların cəlb olunması nəzərdə tutulmuşdur. Həmçinin, kurort-rekreasiya ərazilərində Azərbaycan və xarici ölkə vətəndaşlarının müalicəsi və istirahəti üçün müasir standartlara cavab verən infrastrukturların formalaşdırılması məsələləri, 2007-2017-ci illərdə müalicə-istirahət ocaqlarının mərhələli inkişaf strategiyasının nəzərə alınmasının təmin edilməsi; Azərbaycan Respublikası Nazirlər Kabinetinin bu sərəncamdan irəli gələn məsələləri həll etməsi kimi mühüm müddəalar öz əksini tapmışdır [1].

"Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərində inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında sərəncamında da respublikamızda əhalinin istirahəti və müalicəsinin səmərəli təşkili məqsədilə bir sıra mühüm məsələlər öz əksini tapmışdır. Bu məsələlərin həlli müalicə əhəmiyyətli ehtiyatlardan, o cümlədən iqlimdən səmərəli istifadə edilməsini nəzərdə tutur. Müalicə-sağlamlıq komplekslərini müasirləşdirilmək, təkmilləşdirmək və bu sahədə yeni müəssisələrin yaradılması ölkədə aparılan iqtisadi siyasətin mühüm məsələlərindən hesab edilir.

Sanatoriya-kurort müəssisələrində əsas müalicə amillərindən biri də balneoloji ehtiyatlardır. Balneoloji kurortlara təbii mineral və termal sulardan istifadə olunan kurortlar aiddir. Ümumiyyətlə, kurortların ixtisaslaşmasında mineral suların əhəmiyyəti böyükdür.

Azərbaycanın mineral sularından qədim zamanlardan təbabətdə geniş istifadə olunmuşdur. Belə ki, Azərbaycanda bu mineral sularının müalicə xüsusiyyətləri insanlara hələ o zamanlardan məlum olmuşdur. Ölkəmizin ərazisində 1000-dən çox mineral su bulağı vardır. Bu mineral bulaqların əksəriyyəti respublikamızın dağlıq rayonlarında yayılmışdır. Bu da

respublikamızda müalicə-sağlamlıq turizminin inkişafı üçün əhəmiyyətlidir. Eyni zamanda burada rekreasiya və turizm xidməti üçün də çox əlverişli şərait vardır. Azərbaycanı “Mineral sular muzeyi” adlandırırlar. Abşeronda Şıx, Suraxanı, Naxçıvanda Badamlı, Sirab, Vayxır, Darıdağ, Şuşada Şırlan, Turşsu, Kəlbəcərdə İstisu, Qubada Xaşı, Cimi, Xaltan, Lənkəranda Meşəsu, Qotursu, Donuzütən, İstisu, Şabranda Qalaaltı, Qaxda İlisu, İsmayılda Bədo və s. mineral bulaqları vardır.

Quba-Xaçmaz iqtisadi rayonunda Xaltan, Cimi, Qalaaltı, Xaşı mineral bulaqları regionda müalicə-sağlamlıq turizminin inkişafında mühüm rol oynayır. Xaltan bulağı Quba rayoyunun Xaltan kəndinin ərazisində yerləşmişdir. Azərbaycan Respublikasının Quba rayonunun Xaltan kəndinin şimal-şərqində, Gilgilçayın hər iki sahilində çoxdebetli, isti kükürdlü mineral bulaqlar yerləşir. Qədimdən yel və dəri xəstəliklərinin müalicəsində istifadə olunur. Bu günlərdə "Qalaaltı Hotel & SPA" kompleksinin istifadəyə verilməsi respublikamızın turizm infrastrukturuna, xüsusilə də müalicəvi turizmin inkişafına öz töhfəsini verəcək. 7,1 hektar sahəsi olan kompleksdə 354 nəfəri qəbul edə biləcək otel, villa və kotteclər var. "Qalaaltı" kompleksində yerləşən tibbi mərkəz müasir avadanlıqla təchiz edilib [8].

Böyük Qafqazın ətəklərində, dəniz səviyyəsindən 700 metr yüksəklikdə yerləşən "Qalaaltı" kurortu 1976-cı ildən fəaliyyət göstərir. Sanatoriyada müalicə Qalaaltı kəndi ərazisindən çıxan təbii sularla aparılır. Xəzər sahilinin Nabran-Yalama, Giləzi-Zarat, Abşeron, Lənkəran-Astara çimərliklərinin yaxınlığında karbohidrogenli mineral sular vardır. Bunlar sahil zonalarında rekreasiya obyektlərinin bütün il boyu fəaliyyət göstərməsi üçün şərait yaradır [6].

Abşeron yarımadası qızılı qumlu sahilləri və dənizi ilə məşhurdur. Bununla yanaşı Abşeron yarımadasında çoxlu şəfa verən bulaqlar da vardır. Suraxanı, Sabunçu və Şıx burnunda çıxan mineral sular böyük müalicəvi əhəmiyyətə malikdir. Yarımadada böyük sayda metan və kükürd tərkibli mineral sular vardır. Zığ qəsəbəsində və Şıxda mineral suların müalicəvi əhəmiyyəti çoxdur. Masazır kəndində yerləşən Böyük Şor və Masazır göllərinin palçığı da müalicəvi əhəmiyyəti vardır.

Lənkəran-Astara bölgüsündə 100-dən çox termal sular vardır. Respublikamızın möcüzəli sularından biri də Masallı rayonundakı məşhur "İstisu"dur. Burada suyun temperaturu 60 dərəcədədn çox olur. Qədimdə yerli sakinlər bu suyu minbir dərdin dərmanı olaraq möcüzəvi su adlandırmışlar.

Naxçıvan Muxtar Respublikasının ərazisində 250-dən çox mineral su bulağı vardır. Bu əsrarəngiz diyarın mineral suları öz müxtəlifliyi ilə muzeyi xatırladır. "Badamlı", "Sirab" mineral suları daxili orqanların müalicəsində möcüzəvi əhəmiyyəti vardır. Mədə-bağırsaq xəstəliklərinin müalicəsində, iltihabın aradan qaldırılmasında karbonlu sulardan istifadə edilir. Bu sulardan həm müalicə kimi, həm də reabilitasiya dövründə də istifadə etmək mümkündür.

Azərbaycan Respublikasının yanmayan nefti-Naftalan dünyada məşhurdur. Gəncədən 48 km cənub-şərqdə Naftalan kurort şəhəri yerləşir. Naftalan nefti dəri, sümük-əzələ xəstəlikləri üçün olduqca böyük müalicəvi əhəmiyyətə malikdir. Naftalan nefti respublikamızın ən qiymətli müalicəvi əhəmiyyətli təbii sərvətlərindən biridir. Hələ XV əsrdə Naftalan neftindən müalicə məqsədilə istifadə olunurdu. Naftalan nefti əsəb, ginekoloji, uroloji və dəri xəstəliklərinin, eləcə də qara ciyər xəstəliklərinin, oynaqların və dayaq-hərəkət aparatına aid oynaqdan kənar yumşaq toxumaların müalicəsində mühüm əhəmiyyət kəsb edir.

Hazırda Naftalanda özəl istirahət və sağlamlıq mərkəzi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası "Kurort" Səhmdar Cəmiyyəti nəzdində "Naftalan" Kurort Birliyi fəaliyyət göstərir. Bu mərkəzlər "Chinar Hotel SPA Naftalan", "Naftalan Hotel by Rixos", "Garabag Resort & Spa, "Möcüzəli" Naftalan, "Şəfa vannaları", Naftalan müalicə və sağlamlıq mərkəzi, "Sehirli" Naftalandır.

Naxçıvan Muxtar Respublikasında unikal duz mağaraları yerləşir. Bu duz mağaraları tənəffüs orqanları xəstəliklərinin müalicəsində mühüm rol oynayır. Naxçıvan Respublika Fizioterapiya xəstəxanası 1979-cu il dekabr ayının 29-dan 50 çarpaylıq xəstəxana kimi Naxçıvan Duz mədəni bazasında, dəniz səviyyəsindən 1173 metr hündürlükdə fəaliyyət göstərir. 1980-cı ilin oktyabr ayından xəstəxanada çarpayıların sayı 100-ə çatdırılmışdır. Burada bronxial astma xəstəliyinin müxtəlif tiplərindən əziyyət çəkən insanlar müalicə olunur. Xəstəxananın yeraltı şöbəsi Naxçıvan şəhərindən 14 km aralıda yerləşir. Yeraltı şöbəsi 9 şaxtadan ibarətdir. Onlardan ikisində qadın, ikisində kişi, birində uşaq palataları, ikisində istirahət foyeləri və s. vardır [6].

Hazırda Duzdağ oteli müasir standartlara cavab verərək, nəinki yerli turistləri, həm də xarici turistləri də qəbul edir. Burada bronxial astma, ağciyər xəstəliklərindən əziyyət çəkən xəstələr mütamadi olaraq müalicə alırlar.

Yuxarı-Qarabağ və Kəlbəcər–Laçın rayonları mineral və termal suları ilə zəngindir. Bu ərazilərin meşələri, dağları, mineral bulaqları, balneoloji iqlim şəraiti və s. müalicə-sağlamlıq turizminin inkişafına geniş imkanlar açır. Bu bölgədə, əsasən də Şuşa, Kəlbəcər və Laçında 100-dən çox mineral su mənbələri vardır. Kəlbəcərdə "İsti su", Şuşada "Şırlan", "Turşsu" mineral bulaqları çox müalicəvi əhəmiyyətə malikdir. Regionda balneoloji dağ-iqlim kurortu (Şuşa), istirahət zonası (Gülablı) vardır. İşğaldan azad olunmuş bu torpaqlarda bərpa işləri bitdikdən sonra təsərrüfatın ayrı-ayrı sahələri, o cümlədən turizm sektorunun inkişaf etdirilməsi haqda tədbirlər planı hazırlanır.

Azərbaycan palçıq vulkanları ilə zəngindir. Ölkəmiz dünyada palçıq vulkanlarının sayına və müxtəlifliyinə görə seçilir. Palçıq vulkanları əsasən, Abşeron yarımadasında, Şamaxı-Qobustan, Cənub-Şərqi Şirvan və Bakı arxipelaqında yerləşir. Təkcə Qobustanda 100-dən çox palçıq vulkanı var. Vulkan palçığının tərkibi mikroelementlərlə zəngin olub, onların çoxu müalicəvi

əhəmiyyətə malikdir. Hazırda dünyada palçıq vulkanları olan ölkələrdə müalicəvi əhəmiyyətli kurortlar fəaliyyət göstərir. Bu ölkələrdə rekreasiya ehtiyatlarından səmərəli istifadə edərək, müalicə-sağlamlıq turizmi sürətlə inkişaf edir. Ölkədə müalicəvi palçıqların bazasında ayrıca kurort-sanatoriya müəssisəsi fəaliyyət göstərməsə də, bir çox sanatoriyalarda müalicəvi palçıqdan istifadə edilir. Son illərdə Azərbaycanın bəzi tibb müəssisələrində vulkan palçığından poliartrit, radikulit, bir çox dəri və əsəb sistemi xəstəliklərinin müalicəsində istifadə edilir.

Dünya müalicə turizmində talassoterapiya müalicə növü inkişaf etmişdir. Talassoterapiya dəniz suyu, yosunu və mikroelementlərindən isitifadə olunan müalicə növüdür. Talassoterapiya əsasən Mərakeş və Tunisdə inkişaf etmişdir. Bu müalicə növünü Azərbaycanda inkişaf etdirmək, kurort və sanatoriyalarımızda onu tətbiq etmək nəzərdə tutulur. Hazırda ölkəmizdə insanların sağlamlığının qorunması, müalicə və istirahətlərinin təşkili üçün kurort-sanatoriya şəbəkəsi ildən-ilə təkmilləşdirilir və daha da genişləndirilir.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı" ölkədə kurort-sanatoriya şəbəkəsinin daha da təkmilləşdirilməsi və inkişafına səbəb olaraq, bu sahədə davamlı uğurlar qazanmağa imkan verəcəkdir.

## Nəticə

Azərbaycanda müalicə-sağlamlıq turizminin inkişaf xüsusiyyətlərini tədqiq edərək, aşağıda göstərilənləri nəzərə almaq lazımdır:

1. Ölkədə mövcud olan palçıq vulkanları bazasında ölkədə ayrıca kurort-sanatoriya müəssisələri fəaliyyət göstərməlidir.
2. Azərbaycanın Xəzər sahilində çimərlik turizminin inkişafını genişləndirmək, bu sahədə dünya ölkələrinin təcrübəsindən istifadə edərək, talassoterapiya müalicə növünü də inkişaf etdirmək lazımdır.
3. Qarabağ regionu rekreasiya ehtiyatları ilə zəngin olub, yaxın gələcəkdə ölkəmizin müalicə-sağlamlıq turizm mərkəzi olacaqdır .
4. Azərbaycanda dünya standartlarına uyğun kurort-sanatoriya müəssisələrinin sayı artmalı, bu müəssisələrdə yüksək keyfiyyətli xidmət təşkil olunmalıdır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət proqramı. Respublika qəzeti, 7 fevral, 2009-cu il.
2. Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" Xalq" qəzeti, 30 noyabr 2019-cu il.

3. *AslanovA.D., Axundov V.Ç., Əhmədova O.M.* Mineral və termal sular. Bakı, 1997, 107 s.
4. *Əfəndiyev V.Ə.* redaktəsi ilə Azərbaycan Respublikasının iqtisadi və sosial coğrafiyası. Bakı, 2010.
5. *Dərgahov V.S.* Rekreasiya-turizm ehtiyatları. Bakı, 2008, 214 s.
6. *Soltanova H.B., Qasımov M., Ağasiyev Ə.* Azərbaycanın kurort təsərrüfatı, Bakı, 2017, 215 s.
7. *Ветитнев А.М., Войнова Я.А.* Организация санатарно-курортной деятельности. Москва: 2014, 270 с.
8. Kurort-sanatoriya şəbəkəsi təkmilləşdirilir » AHİK (ahik.org)
9. https://www.stat.gov.az/source/tourism/

Redaksiyaya daxil olub 23.02.2021